# HALK KÜLTÜRÜNDE GÖÇ ULUSLARARASI SEMPOZYUMU BİLDİRİLERİ

*28-29-30 Mayıs 2010*
*BALIKESİR*

ISBN: 978-975-9049-09-6
©Balıkesir Üniversitesi

Motif Vakfı Yayınları No:12

# Halk Kültüründe Göç Uluslararası Sempozyumu Bildirileri

**Editör**
Prof. Dr. Ali DUYMAZ

**Redaksiyon**
Prof. Dr. Mehmet AÇA
Yrd. Doç. Dr. Halil İbrahim ŞAHİN

**Kapak Tasarımı**
Yrd. Doç. Dr. Nuray GÜMÜŞTEKİN

**Sayfa Tasarımı ve Düzeni**
Öğr. Gör. Barış AKSU

İstanbul 2012

Yayımlanan bildirilerin dil, imla ve ilmi sorumluluğu yazarlarına aittir.

# AZERBAYCAN TESEVVÜF EDEBİYYATINDA "KÖÇ" ARXETİPLERİ

*Migration Archetypes in Azerbaijan Sufi Literature*

Serxan XAVERİ*

***ÖZET***

*Azerbaycan Tasavvıf Edebiyatında Göç Temelleri arkaik ritüele ve eski halk geleneksel inançlarına kadar uzanan "Göç"ün edebiyatda da çeşitli yansımları ve anlamları izlenilmektedir. Böyle gerçeklikle biz Azerbaycan Tasavvıf şiirinde karşılaşmaktayız. Temelini "Vehdeti-vücut" felsefesi oluşturan tasavvıf şiiri "Göç" düşüncesini de çok çeşitli yönlerden yansıtmaktadır. Burada "Göç" hakka kovuşmak uğruna özen gösteren sufinin yaşantılarını ifade eden motif olarak karşımıza çıkmaktadır. Onun ifade şekilleri ve anlamları şiirlere göre yeni yeni boyutlar kazanarak farklı sanat güzellikleri oluşturmaktadır.*

***Anahtar Kelimeler:*** *Azerbaycan tasavvuf edebiyatı, göç, arketip*

"Xalq medeniyyetinde köç" beynelxalq simpoziumunda - dünyanın bir çox xalqlarının, o cümleden türk xalqlarının etnik yaşam terzinin esas formasını teşkil eden «köç»ün müxtelif apektlerden, sosial-ictimai ve medeni-menevi ve s. baxımdan tedqiqine hesr olunmuş, son neticede babalarımızın ortaq medeni deyerlerinin öyrenilmei ile türk xalqlarının medeni baxımdan ortaqlaşmasına yönelmiş bele bir möhteşem tedbirde iştirak etmeyimize şerait yaratdığına göre tedbirin teşkilatçılarına öz derin teşekkürümü bildirirem. Tedbirin keçirilmesinin esas teşkilatçıları Türkiye Cümhuriyyetinin Kültür Bakanlığı, «Motiv» Veqfi ve Balıkesir Universitetidir. Mehz bu qurumların teşkilatçılığı ile dünya türk xalqlarının elmi elitası burada bir araya toplaşmış, yalnız kök mövzusu ile bağlı deyil, türk humanitar gerçekliyinin qloballaşan dünyada mövqeyini müeyyenleşdirmek istiqametinde fikir ve mülahizelerini bir-biri ile bölüşürler.

Hem vetendaxili (vertikal), hem de vetenxarici(horizontal) köçeriliyi tarix boyu özüne heyat terzi olaraq seçmiş türklük etnik medeni-menevi potensia olaraq hem sosial-siyasi, hem de medeni-menevi baxımdan daim açıq sistem xarakteri daşımış, köç prosesinde kontaktda olduğu medeniyyet ve sivilizasiyalarla münasibetde mütereqqi deyerleri qebula meyilli olduğu kimi, özünden mütereqqi deyerleri digerlerine vermeye de sexavetli olubdur. Bu tarixi enene bu gün de qorunur.

Heç şübhesiz köçerilik sosial aspektden ilk növbede etnik bir yaşamterzidir. Lakin bu etnik yaşam terzi etnosun bütün mentalitetini, düşünce terzini, felsefi dünyagörüşünü, etnik-menevi deyerler sistemini, sosial teşkilatlanmasının müxtelif aspektlerini şertlendiren esas amildir. Bu simpoziumda bütün bu aspektlerle bağlı kifayet qeder maraqlı meruzeler dinledik. Bizim mövzumuz köçeri heyat terzine bağlı olan düşünce terzinin Azerbaycan tesevvüf edebiyyatında erxetip statusunda iştirakı

* Yrd. Doç. Dr., Azerbaycan Milli Bilimler Akademisi.

xüsusiyyetleriniincelemekdir. Azerbaycan tesevvüf edebiyyatında türk köçebe heyat terzi ve deyerler sistemi kontekstinde arxetipleriniaşağıdakı kimi müeyyenleşdirmek olar:

- sosial arxetiper;
- psixoloji arxetipler;
- menevi arxetipler.

Ekser tedqiqatçılar yekdillikle qeyd edirler ki, türk tesevvüfedebiyyatında etnik-pixoloji arxetipler iştirak edir ve bu xüsusiyyet türk tesevvüf edebiyyatını ereb ve fars tesevvüf edebiyyatından esaslı olaraq ferqlendirir. Bu arxetipler içerisinde türk etnosunun köçeri heyat terzinden qaynaqlanan arxetipler xüsusile üstünlük teşkil edir. Bu da ilk növbede tesevvüf teliminin felsefi esasının köç heyat terzinin doğurduğu düşünce terzi ile uyğunluğundan qaynaqlanır. Bu uyğunluqlar hansı aspektlerde üze çıxır?

Vaxtın imkan verdiyi hüdudlarda bu aspektlere diqqet çekmeye çalışacağıq. İlk növbede teevvüfün inkişaf modeli ve köç arasında anologiya haqqında.

**Tesevvüfde inkişaf modeli ve köç**

Tesevvüfün teqdim etdiyi modele göre, inkişaf dairevi trayektoriya boyunca vahidden parçalanmaya (nüzül ve ya involyusiya) ve yeniden parçalanmadan vahide (upuc ve ya evolyusiya) marşrutu üzre gedir. Zaman ilkinliyinde vahid olanı parçalanmaya doğru qovduqca ferqlendirici xüsusiyyetler üze çıxarır. Bu ferqli xüsusiyyetler ilkin ümumi başlanığıcdan uzaqlaşmanın ele bir heddine çatıp ki, artıq onlap arasında ümumilik görünmez olur. Ve bu nöqteden evolyusiya başlayır...Evolyusiya merhelesine ferqlerin tedrici azalması, ümumiliyin ise artması xasdır.

İlkin ümumilik menevi başlanğıcdır. İnvolyusiyadan evolyusiyaya keçid ise menevi başlanığıcdan uzaqlığın kulminasiya heddi olmaq etibarı ile en qatı materiallıq momentidir. Ona göre de, evolyusiya merhelesinde kesretden vehdete doğru geden yol dünyevilikden meneviye doğru da geden yoldur. Tesevvüf ruhun zamanda evvele doğru tedrici tekamülünü böyük bir sıçrayışla ireliye doğru aparmaq cehdinden yaranmış ve özüneqederki eyni meqsedli cehdlerin (Hind-buddizm sisteminin mütleq reallıq haqqında kardinal tezisi, neoplatonizmin emanasiya nezeriyyesi, ilkin xristianlığın asketizmi ve s. ) daha kamil, sistemli bir forması kimi meydana çıxmışdır. Göründüyü kimi, tesevvüfün ümumi felsefi esasına bir dinamizm xasdır.

Bu felsefeyegöre insan da bu dünyaya ruhi dünyadan köç etmişdir. Köç edilen yer, ilkin başlanğıc - veten, bu dünya ise qürbetdir. İnsan yeniden öz ebedi veteni olan ilahi meqama köç etmelidir. Bu düşünce hem xalq tesevvüf edebiyyatında, hem de divan edebiyyatında «qalu bela» motivi ile eks olunmuşdur. Bu motiv ister nezeri-elmi, isterse de poetik-bedii sufi edebiyyatlarının hamısından qırmızı bir xetle keçir. Bir-birinden ferqli müxtelif sufi interpretasiyaları olan bu anlayışla bağlı Qurani-Kerimde bele bir hadise neql olunur: Allah ruhları yaradıb onları yer üzüne göndermemişden evvel hamısını bir yere toplayıb onlardan soruşur: «Men sizin Rebbinizemmi?» Onlar hamısı cavab verirler ki, beli, Rebbimizsen. Bu ilahi meqam sufiler terefinden İnsanın dünyaya köçü kimi modelleşdirilir. Eger İnsan bu dünyada öz ehdini unutmayıb yeniden köç etdiyi ilkin vetenine doğru can atırsa, demeli, o, sedaqetlidir. Yox, eger insan ehdini unudub dünya gözelliklerine aldanırsa, demek, o, xeyanetkardır. Sufilerin anlamında en böyük fedakar ibadetler en böyük sedaqetin nümunesidir. «Qalu bela» motivi Azerbaycan tesevvüf

edebiyyatından da qırmızı bir xetle keçir. Meselen, 16 yüzilin aşığı Qurbani insanın ruhi köçünü «qallu bela» motivi ile aşağıdakı kimi teqdim edir:

*Lamekan şehrinden geldim cana men,*
*Canlar ehli bir canana yetişdim.*
*Elden-ele, qabdan-qaba süzüldüm,*
*Qetre idim, bir ümmane yetişdim.*

*Bir gözelin eleyinden elendim,*
*Beli dedim, belasına belendim.*
*Yeri, Göyü yaradandan dilendim,*
*Cöheri axtardım, kana yetişdim.*

*Qurbani der: göz gözledim, göz aldım,*
*Semağ oldum, ağlım menden söz aldım,*
*Düz terpendim, merufumu tez aldım,*
*Edeb götdüm, yol-erkane yetişdim.*

Burada Qurbani öz biliyinin sakral-ilahi menbeyini açıqlayarken ruhunun ilahi alemden material sisteme köçürülmesini poetik-simvolik bir şekilde tesvir edir ve «Bir gözelin eleyinden elendim, Beli dedim, belasına bülendim»- deyerek ehdi-peyman meqamını xatırlayır.

Eyni ruhi köç motivi Şah İsmayıl Xetaide ise aşağıdakı kimi tesvir edilir:

*İqrar verdim, dönmen Elest bezminden,*
*Verdiyim iqrarı imandan aldım.*
*Başqa seyran gördüm kendi özümde,*
*Bu mehebbeti men Merdandan aldım.*

*...Bildiyim unutdum, eylerem feryad,*
*Derdim budur, dil yox isteyem imdad.*
*Tekrar yene telim etdi bir ustad,*
*Dersimi mektebi-ürfandan aldım.*

İlahi menşeden, ezeli başlanğıcdan, ruhi vetenden ayrılığı, hesreti, köçü ifade eden "bildiyimi unutdum, eylerem feryad" hem nezeri konsepsiya, hem de daxilen yaşanmış duyğu, hesret seviyyesinde teqdim edilir.

**Tesevvüfde menevi-exlaqi tekamül ve vertikal türk köç heyat terzi**

Türk köçeriliyinin esas özel cehetlerinden biri onun hereket trayektoriyası baxımından vertikal - aşağıdan yuxarıya doğru istiqametlenmiş bir hereket olmasıdır. Bu cehetle de türk köçeriliyi ile teevvüfün daxili-menevi kamilleşme konsepsiyası arasında bir yaxınlıq meydana gelir. Şerq-müselman dünyasında tesevvüf telimi mehz dinin şeriet esasında teqdim etdiyi menevi-exlaqi tekamülün nezeri-mistik dünyagörüşün ve praktiki yaşam doktirinalarının vehdetinden ibaret modelidir. Tesevvüfün ayrı-ayrı teriqetleri arasında ferqler ne qeder qabarıq olsa da, onların hamısını birdeşdiren universal cehet

bütün bu telimlerin hamısının ideya esasında insanın menevi-exlaqi tekamülünün, kamilleşmesinin, Allaha qovuşmasının dayanmasıdır. Keşid-keşid teriqetler içerisinde bu menevi-exlaqi kamilleşme yollarından daha çox aşağıdakılar İslam medeniyyeti kontekstinde normativleşmiş ve universallaşmışdır.

I. İnsanın menevi-exlaqi kamilleşmesinin dine münasibetine esaslanan inkişaf modeli:

Şeriet;

Teriqet;

Merifet;

Heqiqet.

II. İnsanın menevi-exlaqi kamilleşmesinin ilahi universumla münasibetlerine esaslanan inkişaf modeli:

Fena fiş-şeyx - şeyxde yox olma;

Fena fir-resul - peyğemberde yox olma;

Fena fil-lah - Allahda yox olma;

Beqa-billah - Allahdaebedileşme.

III. İnsanın menevi-exlaqi kamilleşmesinin öz zekası ile münasibetlerine esaslanan inkişaf modeli:

Elm el-yeqin;

Eyn el-yeqin;

Heqq el-yeqin ve s.

Bütün bu menevi-exlaqi tekamül modelleri müxtelif anlayışlara münasibetde bir-birinden ferqlense de, vahid bir ana ideyada ümumilikteşkil edir. Bu ümumilik menevi-exlaqi tekamülün inkişaf trayektoriyasının vertikal xett üzre olmasıdır. Tekamül bütün hallarda aşağıdan yuxarıya, nefsden ruha, materiallıqdan ilahiliye, yerden göye doğrudur. Menevi-exlaqi tekamülün bu hereket trayektoriyası ile türk köçeriliyinin esas xüsusiyyeti hesab olunan vertikallıq arasında ciddibir uyğunluq vardır. Türk köçeriliyi üzerinde tedqiqat aparan ekser tedqiqatçılar bele bir fiikirde yekdildiler ki, diger xalqların, meselen ereblerin köçeriliyinden ferqli olaraq, türk köçeriliyi vertikal istiqametlidir. Heyat terzindeki bu vertikallıq - aşağıdan yuxarıya doğru hereket daim, en azı her mövsümde tekrarlanan bir heyat terzi olduğundan etnik psixologiyada özünemexsus bir iz buraxır. Hetta etnik tehtelşurda derin köç salaraqetnik mentalitetin esas arxetiplerinden birine çevrilmişdir. Kollektiv etnik şüurda etnosun aşağıdan yuxarıya, arandan yaylağa, düzenlikden dağa hereketi normativleşdiyinden insanın daxili-menevi tekamülünde menevi yolçuluqda yuxarıya doğru olan hereket, şerietden heqiqete, elm-el yeqinden heqq-el yeqine olan kamilleşme yoluasanlıqla qebul edir.

Tesevvüfde kamil «Men»e aparan yol son derece mürekkeb, keşmekeşli tesvir edilmişdir. Bu yolun çoxsaylı merheleleri, merhelelerin mertebeleri, mertebelerin meqamları, meqamların halları ve s. mövcuddur. Bütün bu merheleler nefsle mübarizeden doğan çetinliklerle müşahide olunur. Bu menevi yolçuluğun menev ve fiziki çetinlikleri ile türk vertikal köçündekiçetinlikler arasında bir ümumilik vardır. Köçebelik çetinliklerle, tebietin her an gözlenilmez sürprizleri ile müşahide edilir. Bu yolçuluq yolçudan dözüm, irade, mübarizlik, ağılve sebr teleb edir. Eral Göka yazır: «Köçebe heyat terzi ve deyerler

sistemi topluma dinamizim, dinçilik, dayanıqlılıq, beraberlik ve mübarize ruhu qatır». Tesevvüfde de menevi yolçuluq, bu tipli çetinliklerle müşahide olunur.

**Köçeri düşünce terzinde ve teevvüfde zaman ve mekan**

Köçerinin zaman ve mekan haqqındakı tesevvürleri ile oturaq heyat terzi keçiren etnosuntesevvürleri arasında jiddi keyfiyyet ferqi vardır. Erol Göka bu barede yazır ki, köçeri üçün divar yoxdur, onun mekan haqqındakı tesevvürleri serhedsizdir, sınırsızdır. Köçeri üçn bütün dünya veten, göy ise çadırdır!

Zamana münasibetde ise o, üstündür. Zamanın obyektiv ritmi ile onun heyat terzinin ritmi arasında ferq vardır. Zaman ve mekana türk köçeri etnosunun bele ferqli münasibeti etnik psixologiyada ele möhkem köç salır ki, onun maddi ve menevi medeniyyetinde özellikle özünü biruze verir. Maraq doğurar jehet ondan ibaretdir ki, bu etnik psixologiya türk-Azerbaycan tesevvüf edebiyyatında da özünü bariz şekilde göterir. Tesevvüf müselman sivilizasiyası üçün universal telim olsa da, sufi şairin etnik şüur arxetipleri de burada özünü gösterir. Biz bunun nümunesini Azerbaycan tesevvüf şairi Nesiminin poeziyasında görürük. Bizim qeti qenaetimize göre felsefi esasında hürufilik telimi, vehdeti-vüjuddayanan Nesimi poeziyası hem de xeyli derejede etnik türk mentaliteti ile de şertlenir.

Hesimi poeziyasında İnsan konsepsiyası iki obraz ve onların qarşılıqlı münasibetleri timsalında ümumileşir: kamil aşiq "Men", meşuqe "Sen".

*Mende sığar iki cahan, men bu cahana sığmazam,*
*Gövheri-lamekan menem, kövnü mekana sığmazam.*

misraları şairin heyat kredosunu ve felsefi meramını ifade etmek baxımından onun bütün yaradıcılığına epiqraf seçile bilep. Bu misralar öz empirik varlığını mehv edib zaman ve mekan fövqüne qalxan "Men"in hayqırtısıdır. İki cahanı özünde birleşdirib cahana sığmayan "Men" Allahla vehdete qovuşan substansional mahiyyetdir. Zeman, mekan, forma, çeki, ölçü ve s. kateqoriyalar materiyanın mövcudluq formaları kimi Allah terefinden yaradılıb ve demeli, zati-mütleq bütün bunları ehtiva edir. Sufi tefekkürünün bele bir serhedsizliyi, mekana münasibetde miqyassızlığı köç psixologiyasının zaman ve mekan tesevvürlerine dayanır. Yaxud fikirimizi bele de ifade ede bilerik ki, tesevvüfün, vehdeti-vücudun qebuluna qeder türk etnik tefekküründe köçeri heyat terzinden ireli gelerek zaman ve mekan haqqında tesevvür miqyassız olduğundan Nesiminin timsalında heç bir ereb ve fars tesevvüf şairinin yaradıjılığında tesevvür etmediyimiz seviyyede hem poetik intonasiyası, hem de nezeri-felsefi yönü ile mükemmel bir seviyyede tezahür edir. Köçerinin hereket trayektoriyasında, daimi hereketinde bir sığmamazlıq, mövjud olan mühit sınırları ile mehdudlaşmamaq, hereketle zamana qalib gelmek vardır.

Özünü derk etmiş kamil aşiq "Men" öz mahiyyetindeki ruhu vasitesile Allahla birbaşa (Xaliqi mexluqda göpkemle yox!) kontakta girir. Mehz bu anda "Men" iki cahanı ehtiva edir, lakin özü cahana sığmır.

Ve yaxud:

*Menem ol tilsimi-pünhan ki, bu gün cahane geldim,*
*Ezeli nişansız idim, ebedi nişane geldim.*
*Bu tilsimi çünki açdım, zülmata nur saçdım,*
*Bu neçe mekanı keçdim ki, bu cismü cane geldim.*

Bu beytler ise ruhun ilahi dergahdan material sisteme endirilmesini tesvip edip. "Men" cahana endirilmiş "tilsimi-pünhanın" özüdür. Lakin material sistemde xüsusi fopma (nişan) almış "Men" sirr olmaqdan çıxır, öz-özünü derk etmiş Allaha çevrilir.

İnsan bütün yaradılmışlar içerisinde yegane mexluqdup ki, onun mahiyyeti Allaha mexsus cövherden - ruhdan ibaretdir. Ruh öz tebieti etibarile azadlıqseverdir. Onun azadlığı ise zaman ve mekanın buxovladığı cahanın fövqündedir.

*Ey bülbüli-qüdsi, ne giriftari-qefessen,*
*Sındır qefesi, taze gülüstan teleb eyle.*

**Fenafillah ve köçebelikde ümid**

Köçde itki, depresiya, hesret varsa da, bütün bunlarla yanaşı geleceyin arzu olunan mükemmel obrazı da vardır. Bu obraz, ümid o qeder güclüdür ki, mehz ona qovuşmaq arzusu, hesreti, bütün bu çetinliklere qalib gelmeye yardım edir. Köçeri sonsuz bir hesretle bu ümide doğru gedir. Bu xüsusda Erol Göka «Türklerin psixolojisi» eserinde yazır: «Köçün getirdiyi deyişiklik neyise itirmekden daha çox, ümidi ve qurtuluşu temil etmekdir». Köçerilikde yalnız köçeri tebietin içerisinden keçmir, hem de tebiet köçerinin içerisinden keçir. O tebieti öz içerisinden keçirerek onun bütün gözellikleri ile daxilen zenginleşir, onunla bütövleşir, harmoniya teşkil edir. Sufinin fenafillaha geden yolu da daxili zenginleşme yolu ile son ümide doğrudur. Her iki yolun, köçün son menzili işıqla, harmoniya ile qovuşuqdur.

**EDEBIYYAT**

GÖKA, Erol. Türklerin Psikolojisi. Tarihin Ruhumuzda Bıraktığı İzler, Timaş Yayınları, İstanbul 2008.

Şah İsmayıl Xetai. Eserleri, I c. , Azerneşr, Bakı 1975.

HESIMI, İ. *Seçilmiş Eserleri*, Azerneşr, Bakı 1973.

Azerbaycan Aşiqlari ve El Şairleri, I c. , Elm, Bakı 1983.

XIII-XVI Esrler Azerbaycan Şeiri, III c. , Elm, Bakı 1984.